# Poeziyada hər kəsin öz ruhu

**Yaxın günlərdə şair Bəhram Fərmanzadə özünün "Dünya dolu, dünya boş..." "Dünya şahmat taxtasıdır", "Gəraylar gərəkdir Azərbaycana"şeir kitablarını avtoqrafı ilə mənə göndərmişdi. İk olaraq "Dünya şahmat taxtasıdır" kitabının adı özünün cazibəsilə marağımı çəkdiyindən, şairin poetik aləminə səyahətə məhz onunla başladım. Ardınca digər kitablarını da vərəqlədim, şeirlərilə yaxından tanış oldum. Şairin mənəvi aləminə, varınca yaradıcılığı haqqında geniş təsəvvürə malik oldum. Və poeziyasının tematikası, sənətkarlıq xüsusiyyətləri diqqətimi çəkdi...**



Əzəl başdan deyim ki, kitablardan aldığım təəssürat olduqca zəngindir. Şair Bəhram Fərmanzadənin poeziyasında yüzillərin bədii yaddaşından gələn bir mövzu var: dünya. Həyati müşahidələr, yaşam haqqının doğurduğu vətəndaşlıq missiyası, Vətən, xalq təəssübü, yurd, torpaq sevgisi... bunlar şairin poetik yetikliyilə dünya mötivindən doğan ədəbi istiqamətlərdir. Dünyanın dərki, insanın bu dünyadan umacaqları, istəkləri bir fərqli duyumla, özəlliklə açıqlanır. Şairin bədii düşüncəsində dünya hansı anlamdadır, onun təsəvvüründə cahan nələri ehtiva edir? İnsanın fani dediyimiz bu dünyadan görüb-götürdükləri yaşamı üçün yetərlidir-mi? Nədən bəşər ovladı əbədi olan dünyanın amansız işləklərilə barışa bil-mir? Bu kimi ritorik suallara şairin əsər-lərində cavab axtarmağa çalışdım...

Bəhram Fərmanzadənin poetik-fəlsəfi düşüncələrinin yer aldığı "Dünya şahmat taxtasıdır" kitabında ibrətamiz, nəsihətamiz ruhda yazdığı şeirləri toplanmışdır. Bu əsərlər təzadlarla süslü dünyanın rənglər palitrasında müəllifin müşahidə etdiyi gerçək həyatı əks etdirən poetik düşüncələrinin məcmusudur. Şeirlərin çəkisi, məna yükü, bədii, məntiqi təsiri təbii ki, şairin yaradıcı potensialının təzahürüdür. Bütövlükdə poetik nümunələrin mahiyyətinə varınca xəyalımda ayağında çarıq, əlində dəmir əsa olan ixtiyar bir səyyah canlandı. Səyyah dediyim şair illərin təkində dünyanın işlərini, qəzavü-qədərini bədii, nəzəri düşüncəsində canlandıraraq onun obrazını yaradıb. Dünyanın obrazı aydın, bəzən də özünün doğurduğu fəlsəfi mahiyyətilə təsvir edilir. Şairin ifadə-təsvirlərindən oxucuya ünvanladığı ideyadan aydın olur ki, əzəldən bələdi dünya, birini verib, beşini alandı dünya, allanma onun çeşidli rənglərinə, zövqü-səfasına, alışdım-yandım parıltısına, yalandı dünya. Ondan insana arxa, kömək olan deyil...

Salınıb çox tac, alınıb çox taxt,
Fələyin əliylə əyiləndə baxt.
Çox döyüb döşünə öyünmə heç vaxt,
Nə arxa, nə kömək olandı Dünya!

Bir başqa şeirində isə şairin dünyanı açıq-aydın ittiham ediyinin də fərqində oluruq:

Kiminin əlində qiymətli zərdi,
Kiminin çiyninə yükləyib dərdi,
Peşən möhtac edib namərdə mərdi,
Oyundan kənarda qalan dünyasan.

Gerçəkliyi əks etdirən fikrin poetik məntiqi budur. Bəs fani dediyimiz bu dünyayla necə rəftar etməli, necə davranmalı... Şair dünyanı öz poetik anlamı, düşüncəsilə xarakterizə edir, onu dərk etməyə çalışır. Qosqoca dünyanın sirrinə vaqif olmaqdan ötrü bədii axtarışlara varır. Şeirlərində onun görünməyən tərəflərinin çizgilərini incəliklə çəkərək aydın tablosunu yaradır. Baxırsan, burada müəllif bəşər adamına yaşam yolunu göstərir. Dünyanı özünün "çək-çeviri" ilə "ittiham" edən şair insanlara dünyaya bel bağlamamağı tövsiyə edir, o hər kəsin ömründən yel kimi ötüb keçir, sən həyatını ağılla yaşa deyir. Bəşər övladından qalan yalnız əməldir, izdir, nişanədir."Bir verib beşini alan dünyasan", - deyir. Əslində ana mövzudan doğan motivlər insana dünyanı öyrənməyi, dərk etməyi, vətəndaş olaraq əbədi olan təzadlı dünyada öz mənzilini qurmağı, onun pəncərəsindən həyata ayıq nəzərlərlə baxmağı, hər şeyi öz rəngində görməyi nəsihət edir. İnsan Tanrının ona lütf etdiyi ömür payını dəyərləndirməli, həyatını ağılla idarə etməli, ömrünü xeyirxah əməllərilə rövnəqləndirməlidir. Dünyanın gərdişində xeyirxahlığı, yaxşı əməllərilə öz izini, sözünü, adını yaşatmalıdır. Dünyanı şahmat taxtasına bənzədən, "dünya dolu, dünya boş"-deyən şairin fəlsəfi baxışından anlaşılan budur ki, bu meydanda sən də məharətini göstərməli, yaxşı oyunçu olmağı bacarmalısan. Göründüyü kimi, mövzu özlüyündə bəşəri mahiyyət kəsb edir.

***

Vətən üçün yaşamaq, yurd yerini canı, qanı bahasına qorumaq, bu yolda ya şəhid, ya qazi olmaq hər bir vətən oğlunun borcudur. Bəhram müəllimin ruhundakı vətənpərvərliyi, torpağa bağlılığı, doğal sevgini xarakterində, yaşam tərzində ifadə etməsi əsərlərindən aydın görünür... Duyuram ki, bu yerdə oxucuda belə bir sual yarana bilər: Şairin qəlbində bu qədər intəhasız meyarda Vətənə bağlılıq, yurd sevgisi nədən və hardan yaranıb? Sözün bu məqamında Bəhram Fərmanzadəni oxuculara yaxından təqdim etmək öz zərurətini doğurur. Amma şairin tale yoluna keçid etməzdən öncə xarakterində mühüm olan bir cəhəti də diqqətə çatdırmağı vacib sanıram. Bəhram Fərmanzadənin bir şəxsiyyət, həqiqi ziyalı kimi formalaşması və yetişməsində kökdən gələn, ailə tərbiyəsilə formalaşan əqidə bütövlüyü gələcək həyatının nizamlanmasında böyük rol oynamışdır...




Bəhram Fərmanzadə Vətənimizin bir parçası olan ulu Beyləqanın I Şahsevən kəndində doğulmuş, elə bu yurdda da özünün sadə həyatını yaşamışdır.Şair Bakı Dövlət Universiteti Tarix fakültəsinin məzunudur. Bir çox əsərlərində mövzunun tarixi köklərinə varmaqla oxucuya bilgi verməsi də elə ixtisasından irəli gəlir.

O, dünyaya göz açandan ailədə adı fəxarətlə, məhəbbətlə çəkilən, hörmət və ehtiramla anılan dayısı, Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun igidliyi, cəsurluğundan bəhs edən həyat hekayələrinin təsirilə böyümüşdür. Cəmi 21 il yaşamış qəhrəman dayısının şərəfli ömrü uşaqlıqdan köksündə Vətənə sevgi, sədaqət məşəlini yandırmışdır. Gəray Əsədov Böyük Vətən müharibəsi dediyimiz (1941-1945)savaşda igidliklə döyüşmüşdür. 1944-cü il oktyabrın 19-da isə Rumıniya torpağında düşmənin atəş nöqtəsini susdurmaqdan ötrü sinəsini fədakarcasına faşist pulemyotunun lüləsinə dayayaraq şəhid olmuşdur. Cəsur döyüşçünün qısa, lakin mərdlik, xeyirxahlıq, igidliklə süslü həyatı Bəhram Fərmanzadəyə örnək olmuşdur. Gəray Əsədov özünün cəsurluğu ilə təkcə doğulduğu ailənin, həmyerlilərinin deyil, xalqımızın qəlbində əbədi bir heykələ dönmüşdür.

Şairin "Gəraylar gərəkdir Azərbaycana" şeirlər toplusunda müəllif həyat gerçəkliyinin doğurduğu hadisələri zəngin bədii təxəyyülündən süzülən poetik əsərlərində böyük coşqiyla tərənnüm etmişdir. Qəhrəmana həsr etdiyi şeirlərinin birində şair qürurla deyir:

Bahar çiçəyini sıxıb köksünə,
Koroğlu cəngində harayım gəlib.
Gül-çiçək səpilib yolları üstə,
Babəkin kəsilmiş qolları üstə,
Şəhidlər içində Gərayım gəlib...

Şair bir çox şeirlərində Gəray Əsədovun cəbhə məktublarından sətirləri, Qəhrəmanı dünyaya gətirən Gülarə ananın ömür boyu ürəyində oğul dərdilə yaşamasını həsrət, kədər dolu misralarında xatırlayır. Nəsil ağacının şah budağı, fəxarət, qürur yeri olan Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun qısa, lakin şərəfli ömrü Bəhram müəllimin həyat meyarı, yaşam amalı olmuşdur. Axı o, Vətənə igid, qəhrəman oğul verən bir nəslin, kökün davamçısı idi!

Müəllif bir çox əsərlərində müharibənin bəşəriyyətə gətirdiyi bəlalaları, insanlara yaşatdığı qorxunu, acıları göstərməklə ona nifrət hissini aşılayır.

Əlbəttə, heç bir xalq müharibə istəmir, hamı sülh şəraitində, əminamanlıq içində yaşamaq arzusundadır. Axı müharibə fəlakətdir, vahimədir, dünyanı qaranlığa qərq edən bir kabusdur. Bəşər övladı bu dünyaya işıqlı bir missiya ilə, qurub-yaratmaq, cahanı gözəlləşdirmək üçün gəlir. Şair dünyanı tərtəmiz, hər cür bəlalardan uzaq, əmin-amanlıq içində görmək istəyir. Fərman müəllim bu illərdə Gəray Əsədovun Vətən eşqindən, döyüş yolundan, qəhrəmanlıq məktəbindən dərs alaraq, yaşayaraq yazıb-yaratmışdır. Otuz ilə yaxın bir dövrdə işğalda olan torpaqlarımız uğrunda döyüşən oğullarımızın mübarizlik ruhunu coşduran poetik əsərlər ərsəyə gətirmişdir. Şairin bir sıra şeirlərində müharibələrin viran qoyduğu yurdların acı taleyinə ürəyi ağrıyır...

Dəhşətli hərb odunda
Kənd yanıb, şəhər yanıb,
Torpaq qana boyanıb.
Günəşli səmamızı
Qara bulud almasın
Müharibə olmasın...

İtirib amma unutmadığımız torpaqlarımızın işğalda olan vaxtlarında şair için-için yanaraq o yerlərə layla çalırdı...

Sünbül kimi göz açıb
Duyğu kimi telləşən
Gözlərimdə yaş olub
Yanağımda selləşən,
Dağımdan qaçqın düşüb
Aranımda elləşən,
Obam, elim a layla.

***

Poeziyaya ilk gənclik çağlarından könül vermiş, onunla ülfət bağlamış Bəhram Fərmanzadə hər vaxt özü ilə baş-başa qalıb həyat haqqında düşüncələrini, gördüklərini ədəbiyyata gətirməkdən zövq alıb. İndi şairin haqqında söz demək məqamın-dahansı şeirini nəzərdən keçirirəmsə bu şeirlərdə ovqatının rəngini ruhunun işığını görürəm. "Bu payız da gəlib keçdi beləcə", "Ana heykəli", "Gözümdən düşdü dünya", "Kədər", "Sənə məktub yazacam", "Bu yaz axşamı"... hansını deyim...

Dağ ah çəkdi, dərələri çənlədi,
Bildirçinlər xırman yerin dənlədi.
Bu payızın qəribliyi mənlədi,
Bu payız da gəlib keçdi beləcə.

Sözümüzün əvvəlində qeyd etdiyimiz kimi, şair yaradıcılıq imkanlarından bəhrələnərək dəyərli poetik əsərlər ərsəyə gətirmiş, kitablar nəşr etdirmişdir. Poetik əsərlər yazmağı özünün mənəvi borcu hesab edən Bəhram müəllim məsul vəzifələrdə çalışdığı vaxtlarda belə, bədii yaradıcılığını şövqlə davam etdirmişdir. Bəhram Fərmanzadənin yaradıcılığı Azərbaycançılıq ideologiyasının özəyi olan vətənpərvərlik eşqinin, yurd sevgisinin təbliği və poetik tərənnümünə, ata-baba torpaqlarımızdan olan Şahsevənin qədim tarixinin, orada yaşayan soydaşlarımızın həyat tərzinin, qurub-yaratmaq əzminin, vətəndaşlıq mövqeyinin poetik, ədəbi tədqiqinə həsr olunmuşdur. Bəhram müəllim bu illər ərzində özünün zəngun müşahidələrinə söykənərək, həyat gerçəkliklərindən ilhamlanaraq ürəyinin istəyi, diləyinin diqtəsilə yazıb-yaratmış, ədəbiyyat tariximizi çoxçeşidli əsərlərilə zənginləşdirmişdir.

Hər bahar təbiət yenidən doğulur, amma şairin könül bağçasının poeziya çiçəkləri bütün fəsillərdə tərtəzədir. Bəhram Fərmanzadə bu çiçəklərin ətrindən, sevgisindən, rənglərindən duyğulanaraq yaşayır, yaradır...



**Şəfəq Nasir.**
**15.06.2023.**